ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

# HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

*Ali məktəblərarası elmi məqalələr məcmuəsi*

# АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

*Межвузовский сборник научных статей*

# THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

*Interuniversity collection of scientific articles*

## №3/2013

**Məcmuə 1997-ci ildən nəşr olunur.**

**İldə 4 nömrə çıxır.**

**Redaksiyanın ünvanı:**
Bakı şəh., Rəsul Rza küç., 125
Tel.: 596 21 44; 4970625
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

**Bakı – 2013**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
*Rüblük elmi nəşr*


**Redaksiya heyəti:**

**Dilçilik**
filol. e. d., prof. **A.M.Məmmədli**
filol. e. d., prof. **A.Ə.Həsənov**
filol. e. d., prof. **T.H.Şükürbəyli**
filol. e. d., prof. **T.H.Məmmədova**
filol. e. d., prof. **F.Y.Veysəlli**
filol. e. d., prof. **D.N.Yunusov**
filol. e. n., dos. **N.Ş.Məmmədov**
filol. e. n., dos. **E.Ə.Şükürlü**

**Ədəbiyyatşünaslıq**
filol. e. d., prof. **A.A.Hacıyev**
filol. e. d., prof. **M.Q.Qocayev**
filol. e. d., prof. **Z.A.Ağayev**
filol. e. d., prof. **Ş.H.Xəlilli**
filol. e. d., prof. **R.M.Qeybullayeva**
filol. e. d., prof. **N.T.Məmmədov**
filol. e. n., dos. **İ.M.Carçıyeva**
filol. e. n., dos. **R.K.Rəsulov**

**Pedaqogika**
ped. e. d., prof. **A.N.Abbasov**
ped. e. d., prof. **O.M.Rəcəbov**
ped. e. d. **K.A.Məmmədov**
ped. e. d. **İ.H.Cəbrayılov**
ped. e. d. **F.N.İbrahimov**
ped. e. n., dos. **O.Ə.Səmədov**
ped. e. n., dos. **Y.K.Alxasov**
ped. e. n., dos. **A.G.Məmmədov**

**İctimai elmlər**
fəlsəfə. e.d., prof. **M.A.Əliyev**
fəlsəfə. e.d., prof. **C.R.Məmmədov**
tarix e.d., prof. **F.F.İbrahimli**
tarix e.d., prof. **M.İ.Əmrahov**
psixol. e.d., prof. **İ.M.Novruzlu**
tarix e.n., dos **A.Ə.Rəcəbli**

**Buraxılışa məsul.** filol. e.d., prof. **T.H.Cəfərov**



Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. № 3/2013. – Bakı: Mütərcim, 2013.– 442 s.



© Məqalə müəllifləri, 2013
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2013

**İ. QULİYEV**
*dosent*
guliyevilkin@mail.ru

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S. Rüstəm küç., 25)

# MÜASİR AZƏRBAYCAN DİLİNDƏ LEKSİK ŞƏKİLÇİLƏRİN TƏSNİFİ

***Açar sözlər:*** *müasir Azərbaycan dili, leksik şəkilçi, təsnif, isim, sifət*
***Ключевые слова:*** *современный азербайджанский язык, лексические суффиксы, классифицировать, существительные, прилагательные*
***Key words:*** *the modern Azeri language, lexical suffix, classified, noun, adjective*

Azərbaycan dilində şəkilçilər, onların təsnifatı, funksiyası, işlənmə mövqeyi, mənşəyi, yazılışı və aralarındakı münasibətlər haqqında ali və orta ümumtəhsil məktəb dərsliklərində, dilə dair yazılmış müxtəlif məqalə və monoqrafiyalarda yetərincə məlumat verilmiş, sözün kökü və şəkilçi anlayışı aşağıdakı şəkildə fərqləndirilmişdir: "Sözün müstəqil mənaya malik olan, ayrılıqda işlənə bilən və dəyişməyən hissəsinə ***kök***, müstəqil lüğəvi mənaya malik olmayan, ayrılıqda işlənməyən, söz kökünə artırılarkən yeni mənalı söz düzəldən və ya sözlər arasında əlaqə yaradan hissəsinə ***şəkilçi*** deyilir" (bax. 2, s.6-7; 3, s.30).

Azərbaycan dilində şəkilçilər haqqında ilk monoqrafiyanın müəllifi prof. S.Cəfərov onların törəmə yolları, vəzifə və məna xüsusiyyətlərinə görə fərqlənməsi, forma və məzmun oxşarlıqları haqqında geniş bilgi verir, şəkilçiləri vəzifəsinə görə iki yerə (sözdüzəldici, sözdəyişdirici) ayırır (bax. 1). Prof. M.Hüseynzadə də dilimizdə işlənən şəkilçilərin köklərdə əmələ gətirdikləri məzmun və şəkil dəyişikliyinə görə iki qismə ayrıldığını göstərir (2, s.11). Prof. Q.Kazımov "Müasir Azərbaycan dili (morfologiya)" adlı ali məktəb dərsliyində şəkilçilərin morfoloji funksiyasına görə sözdüzəldici (leksik), sözdəyişdirici (qrammatik) və formadüzəldici olmaqla üç qrupa ayrıldıqlarını qeyd etdikdən sonra leksik və qrammatik şəkilçi terminlərinin qüsurlu olduğunu göstərir və bunların əvəzinə qrammatik-leksik şəkilçi və qrammatik-morfoloji şəkilçi terminlərini təklif edir (3, s.30).

Mənbələrin böyük əksəriyyətində sözdüzəldici (leksik) şəkilçilər əsas nitq hissələri bəhsində təqdim olunmuş və onların yeni söz əmələ gətirməsindəki rolu əsas nitq hissələrinə görə müəyyənləşdirilmişdir. Prof. S.Cəfərovun monoqrafiyasında leksik şəkilçilər əsasən mənşəyinə görə və bir nitq hissəsindən eyni və ya başqa nitq hissəsi düzəldə bilmə imkanlarına görə təsnif edilmişdir (1, s.30-52). Eyni zamanda, N.Məmmədov və Q.Talıbovun qələmindən çıxan kitablarda da leksik şəkilçilərin tam və əhatəli təsnifatına dair ayrıca bir başlıq görə bilmirik (bax. 4; 6).

Mövzuya dair materialları nəzərdən keçirdikdən sonra Azərbaycan dilində leksik şəkilçiləri aşağıdakı şəkildə təsnif edə bilərik:

**1. Funksiyasına görə (funksional bölgü):** a) adlardan ad, fel və zərf düzəldənlər; b) fellərdən ad, fel və zərf düzəldənlər.

**2. Yazılışına görə:** a) bir cür yazılanlar; b) iki cür yazılanlar; c) dörd cür yazılanlar;

**3. Mənşəyinə görə:** a) milli mənşəli olanlar; b) ərəb və ya fars mənşəli olanlar: c) rus və ya Avropa mənşəli olanlar;

**4. Qoşulma yerinə görə:** a) sözün önünə qoşulanlar; b) sözün sonuna qoşulanlar;

**5. Yeni söz yaratma imkanlarına görə:** a) məhsuldar şəkilçilər; b) qeyri-məhsuldar şəkilçilər;

**6. Aralarındakı münasibətlərə görə:** a) sinonim şəkilçilər; b) antonim şəkilçilər; c) omonim şəkilçilər.

Funksional bölgü daha geniş və əhatəli olub, digərlərini də özündə cəmləşdirdiyi üçün leksik şəkilçilərin bu başlıq altında öyrənilməsini daha məqsədəuyğun hesab edirik. Bu bölgüyə əsasən, leksik şəkilçilər iki ana qrupa ayrılır.

1) **Adlardan ad, fel və zərf düzəldənlər;**

2) **Fellərdən ad, fel və zərf düzəldənlər.**

**Birinci qrup** şəkilçilər daha böyük əhatə dairəsinə malikdir və aşağıdakı yarımqruplara bölünür:

a) **isim düzəldən şəkilçilər: -lıq, -lik, -luq, -lük**: yaxşı+lıq, gözəl+lik, quldur+luq, yüngül+lük, göz+lük, mühəndis+lik, qardaş+lıq, baş+lıq, beş+lik, kim+lik; **-laq**: duz+laq, çay+laq, buz+laq, yay+laq, qış+laq, ot+laq; **-ça, -çə**; kitab+ça, meydan+ça, qazan+ça, dəftər+çə; **-çı, -çi, -çu, -çü**: qulluq+çu, musiqi+çi, üsyan+çı, milyon+çu, xırda+çı, ək+in+çi; **-çılıq, -çilik, -çuluq, -çülük**: peşman+çılıq, mehriban+çılıq, dilxor+çuluq, yetim+çilik, kasıb+çılıq; **-cıq, -cik, -cuq, -cük**; ev+cik, gəlin+cik, koma+cıq, parça+cıq; **-cığaz, -ciyəz, -cuğaz, -cüyəz**; quş+cuğaz, qız+cığaz, dil+ciyəz, mən+ciyəz; **-lar, -lər**: Ağa+lar, Xan+lar, Bəy+lər, Üç+lər, Dörd+lər; **-lı, -li, -lu, -lü**: şəhər+li, kənd+li, Dağ+lı, məktəb+li; **-daş**: məsləh+daş, sir+daş, əmək+daş, yol+daş, məslək+daş, silah+daş, cığır+daş, vətən+daş; **-iltı, -ilti, -ultu, -ültü**: nər+ilti, xor+ultu, cing+ilti, gur+ultu; **-iyyat, -iyyət, (-yyat, -yyət)**: kəşf+iyyat, əməl+iyyat, ədəb+iyyat, cəfəng+iyyat, mədəni+yyət, səmimi+yyət, qəti+yyət, mənəvi+yyat; **-dar**: tərəf+dar, hava+dar, mal+dar, anbar+dar; **-keş**: dəm+keş, azar+keş, daban+keş, dud+keş, xət+keş; **-at, -ət**: təşkil+at, tədqiq+at, məlum+at, təchiz+at, təbliğ+at, mühacir+ət; **-ıstan, -istan, -üstan, -ustan (-stan)**: Gürcü+stan, Macar+ıstan; **-iyyə**: icra+iyyə, İslam+iyyə, nəzər+iyyə; **-i, -vi**: Gəncə+vi, Şirvan+i, Təbriz+i; **-zadə**: Kərim+zadə, Ağa+zadə; **-şünas**: ədəbiyyat+şünas; şərq+şünas, tarix+şünas; **-izm**: real+izm, kapital+izm, Marks+izm, sosial+izm; **-er**: milyon+er, milyard+er; **-oloq**: psix+oloq; **-gil**: xalam+gil, bibim+gil; **-baz**: kəndir+baz, iş+baz; **-ban**: bağ+ban; **-xana**: çay+xana, dəftər+xana, kitab+xana; **-ist**: material+ist, jurnal+ist, ideal+ist; **-kən**: yel+kən; **-tuq**: qol+tuq; **-pik**: yel+pik; **-ey**: gün+ey; **-gər**: zər+gər, mis+gər, sövda+gər; **-dan**: qənd+dan, gül+dan; **-saz**: rəng+saz, saat+saz; **-an**: dövr+an; **-gah**: ordu+gah, qiblə+gah, qərar+gah, səcdə+gah, nişan+gah; **-gir**: kəf+gir; **-zar**: gül+zar, lalə+zar; **-ant**: kurs+ant; **poli-**; poli+klinika, poli+texnikum; **mə-**: mə+daxil, mə+xaric; **-ov, -yev**: Mahmud+ov, Xudu+yev; **-çaq, -çək**: qol+çaq, dil+çək; **-c**: ana+c; **-sal**: qum+sal; **-dış**: sağ+dış, sol+dış;

b) **sifət düzəldən şəkilçilər: -lı, -li, -lu, -lü**: ağıl+lı, maraq+lı, duz+lu, ümid+li, öl+üm+lü; **-sız, -siz, -suz, -süz**: dad+sız, təzyiq+siz, duz+suz, öl+üm+süz; **-dakı, -dəki**: bağ+dakı, ev+dəki; **-kı, -ki, -ku, -kü**: axşam+kı, səhər+ki, dünən+ki, hazır+ki; **-cıl, -cil, -cul, -cül**: iş+cil, öl+üm+cül, zarafat+cıl, yuxu+cul; **-lıq, -lik, -luq, -lük**: həftə+lik, on+luq, ay+lıq, dol+ma+lıq, qaz+lıq, litr+lik, biz+lik, mən+lik, ömür+lük; **-çaq**: tuman+çaq; **-lam**: sağ+lam; **-iş**: gen+iş, nəm+iş; **-sul**: yox+sul; **-man**: qoca+man; **bi-**: bi+vəfa, bi+savad, bi+kef, bi+namus, bi+hal, bi+qərar; **na-**: na+mərd, na+münasib, na+nəcib, na+xələf, na+layiq; **ba-**: ba+səfa, ba+məzə; **la-**: la+məkan; **-ı, -i, -u, -ü**: buğda+yı, sürmə+yi, gümüş+ü, armud+u, qəhvə+yi, badam+ı; **-i (-vi)**: tarix+i, dünyə+vi, hərb+i, zahir+i, daxil+i, xaric+i, hüquq+i; **-kar**: tələb+kar, dava+kar, təmiz+kar; **-baz**: kələk+baz, söz+baz, hoqqa+baz; **-pərəst**: vəzifə+pərəst, şöhrət+pərəst, millət+pərəst; **-pərvər**: insan+pərvər; xəyal+pərvər, vətən+pərvər; **-xah**: xeyir+xah, bəd+xah; **-dar**: əlaqə+dar, ev+dar, əmək+dar; **-gir**: pul+gir, fənd+gir; **-gər**: hiylə+gər; **-xor**: müftə+xor, rüşvət+xor; **-keş**: zəhmət+keş, qayğı+keş; **co-**; co+mərd: **anti-**: anti+faşist, anti+imperialist, anti+kapitalizm; **a-**: a+normal, a+semantik, a+simmetrik; **-iv**: obyekt+iv, subyekt+iv; **-l**: norma+l, forma+l; **-atik**: sistem+atik, problem+atik; **-re**: re+aktiv; **-oloji**; psix+oloji;

c) **say düzəldən şəkilçilər: -ıncı -uncu, -inci, üncü (-ncı, -nci)**: bir+inci, üç+üncü, altı+ncı, doqquz+uncu; **-larla, -lərlə**: on+larla, yüz+lərlə, min+lərlə; **-larca, -lərcə**: on+larca, min+lərcə; **-lu**: çox+lu;

ç) **fel düzəldən şəkilçilər: -la, -lə**: baş+la+maq, yağ+la+maq, göz+lə+mək; **-laş, -ləş**:

fikir+ləş+mək, ayaq+laş+maq, söz+ləş+mək, yaxşı+laş+maq, bir+ləş+mək, kömək+ləş+mək; **-lan, -lən**: şikayət+lən+mək, dil+lən+mək, ev+lən+mək, giley+lən+mək; **-al, -əl (-l)**: sağ+al+maq, uca+lmaq, incə+l+mək, qara+l+maq, qısa+l+maq, dik+əl+mək, az+al+maq, yön+əl+mək, köhnə+l+mək, düz+əl+mək, boş+al+maq; **-ar, -ər**: ot+ar+maq, köz+ər+mək, boz+ar+maq, göy+ər+mək; **-a, -ə**: yaş+a+maq, əl+ə+mək, qan+a+maq, boş+a+maq, tıx+a+maq; **-ı, -i, -u, -ü**: turş+u+maq, təng+i+mək, bərk+i+mək, yavaş+ı+maq; **-sa, -sə**: su+sa+maq, qərib+sə+mək; **-sı, -sın, -sin**: dik+sin+mək, tamah+sı+maq, tam+sın+maq; **-imsə**: mən+imsə+mək; **-ılda, -ildə, -ulda, -üldə**: par+ılda+maq, şaqq+ılda+maq, cing+ildə+mək, pıç+ılda+maq, xor+ulda+maq, cükk+üldə+mək; **-ik**: gec+ik+mək, pis+ik+mək, şirn+ik+mək; **-ırğa**: yad+ırğamaq; **-an, -ən**: güc+ən+mək, hıqq+an+maq, hopp+an+maq, şit+ən+mək; **-na, -nə**: kiş+nəmək; **-aş**: yan+aş+maq;

**d) zərf düzəldən şəkilçilər: -ən**: daxil+ən, qəsd+ən, ruh+ən, qəlb+ən; **-la, -lə**: mehribanlıq+la, həyəcan+la, həsəd+lə; **-dan, -dən**: ürək+dən, hər+dən, ani+dən, uca+dan, asta+dan, tez+dən, çox+dan; **-casına, -cəsinə**: qəhrəman+casına; **-akı, -əki**: yan+akı, çəp+əki; **-ı**: yan+aş+ı; **-yana, -anə**: zarafat+yana, şair+anə, mərd+anə; **-liklə, -likdə**: tez+liklə, indi+likdə; **-lik**: hələ+lik, daimi+lik, həmişə+lik, indi+lik; **-ca, -cə**: yeni+cə, türk+cə, tək+cə; **-lıqda**: aralıqda, orta+lıqda, yaxın+lıqda; **-da, -də**: ay+da, gün+də, il+də, bir+lik+də, tək+lik+də; **-a**: acığ+a; **-gə**: bir+gə; **-ına, -inə, -una, -ünə**: uzun+una, en+inə, düz+ünə və s.

**İkinci qrup** şəkilçilər aşağıdakı yarımqruplara bölünür:

**a) isim düzəldən şəkilçilər: -ıq, -ik, -uq, -ük (-q)**: tapşır+ıq, hıçqır+ıq, bil+ik, ört+ük, bur+uq, dəl+ik, hör+ük, çap+ıq, danış+ıq; **-ış, -iş, -uş, -üş**: bax+ış, dur+uş, yer+iş, vur+uş, gül+üş, titrə+yiş, yüksəl+iş, qaç+ış; **-ma, -mə**: döşə+mə, bağ+la+ma, top+la+ma, don+dur+ma, qaz+ma, düy+mə; **-aq, -ək (-k)**: yat+aq, ələ+k, döşə+k, öskür+ək, sın+aq, sanc+aq, dara+q, dil+ə+k, qoru+q, əsnə+k; **-caq, -cək**: yellən+cək, tüpür+cək, diyir+cək, bürü+n+cək, əm+cək; **-ım, -im, -um, -üm**: gey+im, öl+üm, doğ+um, aş+ır+ım, uçur+um (*numerativlər:* bir ud+um su, bir at+ım çay, bir iç+im su); **-maq, -mək**: çax+maq, cır+maq, ye+mək, qaz+maq; **-gə**: süpür+gə, dön+gə; **-ar, -ər**: çıx+ar, aç+ar, Sev+ər, Yet+ər, çap+ar, dəy+ər, kəs+ər; **-tı, -ti, -tu, -tü**: ağar+tı, göyər+ti, bağır+tı, qaral+tı, cücər+ti, böyür+tü, çığır+tı, hönkür+tü; **-qı, -qu, -ğı, -ğu (-ki, -kü, -gi, -gü)**: sor+ğu, çal+ğı, sev+gi, duy+ğu, pus+qu, bur+ğu, qur+ğu, sar+ğı, seç+ki, as+qı; **-qın, -ğın, -qun, -ğun, (-gin, -kin, -gün, -kün)**: yan+ğın, qır+ğın, bas+qın; **-ın, -in**: ək+in, biç+in, gəl+in; **-id (-t)**: keç+id, quru+t; **-ı, -i, -u, -ü**: sür+ü, qorx+u, ölç+ü, çək+i, sanc+ı, ört+ü, yaz+ı, turş+u, şirn+i, dol+u (yağış mənasında); **-ıcı, -ici, -ucu, -ücü**: sat+ıcı, al+ıcı, oxu+cu; **-ınc (-inc)**: sev+inc, qax+ınc; **-acaq, -əcək**: otur+acaq, dayan+acaq, gəl+əcək, tut+acaq, qan+acaq, al+acaq, çap+acaq; **-ıntı, -inti, -untu, -üntü**: yağ+ıntı, yey+inti, çırp+ıntı, gəz+inti, qaz+ıntı, gör+üntü; **-mış, -miş, -muş, -müş**: biş+miş, ye+miş, keç+miş; **-anaq, -ənək**: döy+ənək, boğ+anaq, biç+ənək, toz+anaq, sız+anaq; **-ğac, -gəc**: say+ğac, süz+gəc; **-cə**: düşün+cə, əylən+cə; **-ğıc**: dal+ğıc; **-əm**: dön+əm; **-ır, -ir**: gəl+ir, yat+ır; **-ıc**: ayr+ıc; **-c**; qazan+c, tıxa+c, inan+c; **-da**: sev+da; **-mac**: yanıl+t+mac; yax+mac; **-qan**: yapış+qan; **-an (-n)**: qalx+an, tala+n; **-zik**: əm+zik; **-mur**: yağ+mur; **-a, -ə**: yar+a, çevr+ə; **-qar**: yon+qar; **-maca, -məcə**: at+maca, bil+məcə, tap+maca;

**b) sifət düzəldən şəkilçilər: -ağan, -əyən**: qaç+ağan, küs+əyən; **-qan (-kən)**: çalış+qan, döy+üş+kən, sürüş+kən; **-aq, -ək (-q, -k)**: qorx+aq, ürk+ək, çök+ək, parla+q, titrə+k; **-qın, -kin, -qun, -kün (-ğın, -gin, -ğun, -gün)**: az+ğın, yor+ğun, kəs+kin, tut+qun, sol+ğun, gər+gin, əz+gin; **-ıcı, -ici, -ucu, -ücü**: yırt+ıcı, heyrət+lən+dir+ici, üz+ücü, qır+ıcı, boğ+ucu; **-caq, -cək**: utan+caq, ərin+cək; **-ıq, -ik, -uq, -ük (-q, -k)**: aç+ıq, uç+uq, sök+ük, əz+ik, böyü+k, sök+ük, don+uq; **-ınc, -inc, -unc, -ünc**: gül+ünc, qorx+unc; **-c**: qısqan+c, iyrən+c; **-ma, -mə**: hör+mə, al+ın+ma, eş+mə (bığ), bur+ma (saç), uydur+ma (söz); **-maz, -məz**: ax+maz (su), sön+məz (arzu), qorx+maz (uşaq), qan+maz (adam); **-ar, -ər**: ax+ar (su),

yan+ar (dağ), gül+ər (üz); **-ə**: kəs+ə (yol); **-ı, -i, -u, -ü**: dol+u (qab), say+ıl+ı (günlər), bük+ül+ü (qəzet), tik+il+i (bina); **-cam**: yığ+cam; **-əri**: köç+əri, öt+əri, ged+əri; **-ri**: əy+ri;

**c) fel düzəldən şəkilçilər: -ıl, -il, -ul, -ül**: yaz+ıl+maq, gör+ül+mək, diri+l+mək, üz+ül+mək; **-ın, -in, -un, -ün**: bil+in+mək, döy+ün+mək, çırp+ın+maq; **-ış, -iş, -uş, -üş**: vur+uş+du, yaz+ış+maq, döy+üş+mək; **-aş (-ş)**: tut+aş+maq, anla+ş+maq; **-dır, -dir, -dur, -dür**: dol+dur+maq, yaz+dır+maq, ək+dir+mək, sön+dür+mək; **-ıt, -it, -ut, -üt (-t)**: hürk+üt+mək, ax+ıt+maq, qorx+ut+maq, yarı+t+maq; **-ır, -ir, -ur, -ür**: qaç+ır+maq, bit+ir+mək, it+ir+mək, köç+ür+mək; **-ar**: çıx+ar+maq, qop+ar+maq; **-dər**: dön+dər+mək; **-xul**: bur+xul+maq; **-cut**: bur+cut+maq; **-uxsun**: dol+uxsun+maq; **-ı**: qaz+ı+maq; **-t**: oxşa+t+maq, bənzə+t+mək, quru+t+maq, oxu+t+maq; **-ız, -uz, -ğuz**: ud+uz+maq, qorx+uz+maq, dur+ğuz+maq, qalx+ız+maq; **-ızdır**: əm+izdir+mək, çim+izdir+mək, dam+ızdır; **-xan**: yay+xan+maq; **-ıx, -ik, -ux, -ük**: sın+ıx+maq, döy+ük+mək, bez+ik+mək; **-xa, -xala**: çal+xa+maq, çal+xala+maq, ov+xala+maq; **-na**; qıs+na+maq; **-ümsə**: gül+ümsə+mək; **-sun**: um+sun+maq;

**ç) zərf düzəldən şəkilçilər:**

**-ik**: tələs+ik; **-dikcə**: get+dikcə; **-araq, -ərək**: qaç+araq, çap+araq, bil+ərək ("qəsdən" mənasında) və s.

Funksional bölgüyə diqqət yetirən zaman leksik şəkilçilərin vəzifəsi, yazılışı, qoşulma yeri, yeni söz yaratma imkanları, aralarındakı münasibət (sinonimlik, antonimlik və omonimlik) açıq şəkildə üzə çıxır. Şəkilçilərin mənşəyi məsələsi bu bölgüdən tam olaraq anlaşılmasa da, **-xana, -zadə, -dan, -dar, -pərəst, -pərvər, -şünas, -keş, -i (-vi), -gər, -kar, -baz, -xor, -gir, -gah, -ən, -xah, -zar, -saz, bi-, na-, ba-, co-, la-, -ıstan**[4] şəkilçilərinin fars, **-iyyə, mə-, -iyyat**[2] şəkilçilərinin ərəb, **-ov, -yev, -ist, -izm, -ant, -er, -atik, poli-, re-, a-, -l, -oloq, -atik, -iv, -oloji** şəkilçilərinin isə rus mənşəli olduğunu təxmin etmək mümkündür. Göründüyü kimi, alınma şəkilçilər əsas etibarilə bir cür yazılırlar və yeddisi – **bi-, na-, ba-, co-, la-, a-, poli-** şəkilçiləri istisna olmaqla, söz sonuna qoşulurlar.

### Ədəbiyyat

1. Cəfərov S. Azərbaycan dilində sözdüzəldici və sözdəyişdirici şəkilçilər. Bakı: Maarif, 1968.
2. Hüseynzadə M. Müasir Azərbaycan dili, morfologiya. Bakı: Şərq-Qərb, 2007.
3. Kazımov Q. Müasir Azərbaycan dili, morfologiya. Bakı: Nurlan, 2010.
4. Məmmədov N. Dilin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsullarına dair. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1958.
5. Müasir Azərbaycan dili. II cild. Morfologiya. Bakı: Elm, 1981
6. Talıbov Q. Müasir Azərbaycan dilində söz yaradıcılığı prosesi, dərs vəsaiti. Bakı: APİ-nin nəşri, 1988.

**И.Кулиев**

## Классификации лексических суффиксов в современном азербайджанском языке

### Резюме

В азербайджанской филологии достаточно представлены лексические и грамматические суффиксы: их функции, способы употребления, происхождение, правописание и взаимодействие, но, несмотря на это, до настоящего времени нет полной и систематической классификации лексических суффиксов. Исследования показывают, что лексические суффиксы в азербайджанском языке классифицируются с различных сторон. Среди них суммируются самые основные стороны этого явления – функциональное деление. Лексические флексии полностью раскрывают свою специфику при функциональном делении.

**İ.Guliyev**

**The classification of lexical suffixes in modern Azerbaijan language**

**Summary**

In the Azerbaijanian philology lexical and grammatical inflection (suffixes) is presented enough: their functions, methods of the use, origin, spelling and cooperation, but, in spite of it, to present tense there is not complete and systematic classification of suffixes. Researches show that lexical suffixes in the Azerbaijani are classified from different parties. Among them are added up the most basic parties of this phenomenon - functional division. Lexical inflection fully expose a specific character at functional dividing.

*rəyçi:filol. e. d., prof. İ.Qasımov*

*Redaksiyaya daxil olub: 11.07.2013*

# MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ

## DİLÇİLİK – ЛИНГВИСТИКА

**V.T. AXUNDOVA**
İNGİLİS DİLİNDƏ İSMİN KƏMİYYƏT KATEQORİYASININ İFADƏ VASİTƏLƏRİ .......... 3
**N.E. CAMALZADƏ**
ORFOQRAFİYA DİLİN YAZI NORMASI KİMİ .......... 8
**P.N. ƏLİYEVA**
ÇOXMƏNALI VƏ OMONİM FRAZEOLOJİ VAHİDLƏR .......... 12
**M.N.ƏSƏDOVA**
ƏVƏZLİKLƏRİN TƏYİN BUDAQ CÜMLƏLİ TABELİ MÜRƏKKƏB CÜMLƏNİN KOMPONENTLƏRİNİN BAĞLANMASINDA ROLU
(Azərbaycan və ingilis dillərinin materialları əsasında) .......... 16
**X.S. ƏZİZOVA**
"OTELLO" FACİƏSİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNDƏ ŞƏXS ƏVƏZLİKLƏRİ .......... 21
**K.B. HACIYEVA**
ALINMA SÖZLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ .......... 25
**Ş.Q. HÜSEYNOV**
DAXİLİ LEKSİKON AKTİVLƏRİ .......... 28
**N.İ. HÜSEYNOVA**
SÖZ YARADICILIĞINDA AKTİV PROSESİN ROLU .......... 35
**S.T. KƏRİMOVA**
AZƏRBAYCAN DİLİNDƏ SİNTAKTİK FRAZEOLOJİ KONSTRUKSİYALARIN YARANMASINDA ƏVƏZLİKLƏRİN ROLU .......... 39
**İ. QULİYEV**
MÜASİR AZƏRBAYCAN DİLİNDƏ LEKSİK ŞƏKİLÇİLƏRİN TƏSNİFİ .......... 43
**T.S. QULİYEV**
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRİN QƏZET MƏTNLƏRİNDƏ FRAZEOLOJİ VAHİDLƏRİN EKVİVALENTLİYİ
(Azərbaycan, ingilis və rus dillərinin materialları əsasında) .......... 48
**İ.M. QURBANOVA**
TAYFA DİL ELEMENTLƏRİNİN MÜƏYYƏNLƏŞMƏSİNDƏ BƏZİ KÖK MORFEMLƏRİN ROLU .......... 52
**Ü.R. MƏMMƏDOVA**
MÜASİR İNGİLİS DİLİNDƏ TƏQDİMAT VƏ ONUN DİL SİSTEMİNDƏ YERİ .......... 59
**Н.З. ГАДЖИЕВА**
ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ХУДОЖЕСТВЕННОГО ТЕКСТА ПРИ ПЕРЕВОДЕ .......... 62
**Р.Ф. ГУСЕЙНОВА**
ТИП ДИСКУРСА КАК ГИБРИДИЗАЦИЯ ЖАНРОВ .......... 67
**С.О. ЕМЕЦ**
МЕТАФОРЫ КОНЦЕПТА *УСПЕХ* .......... 70
**Ф.КУРБАНОВА**
ЦЕЛОСТНОСТЬ КАК РЕЛЕВАНТНЫЙ ПРИЗНАК ТЕКСТА .......... 76
**Л.Ш. МАНАФОВА**
ПЕРЕВОД И МЕЖКУЛЬТУРНЫЕ ОТНОШЕНИЯ .......... 80
**Н.Г. НАБИЕВ**
ФРАНЦУЗСКАЯ ФРАЗЕОЛОГИЯ В РАБОТАХ ЛИНГВИСТОВ XX ВЕКА .......... 86

**Н.Б. СЕИД-ЗАДЕ**
ПОТЕНЦИАЛЬНАЯ ЛЕКСИКА В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ.................92
**MUHARREM TANRIVEREN**
ÇEVİRİ (TERCÜME) BİR SANAT MI, YOKSA BİLİM MİDİR?.............................................97

## *ƏDƏBİYYAT - ЛИТЕРАТУРА*

**M.M. ABBASOVA**
MÖVSÜM MƏRASİM NƏĞMƏLƏRİNDƏ OBRAZLAR: QODU, XIDIR NƏBİ, KOSA ........104
**N.Ə. ASLANOVA**
HERMAN MELVİLL ROMANTİZMİNDƏ İDEAL VƏ GERÇƏKLİK ....................................110
**P.G. ƏLİYEVA**
MÜASİR CƏMİYYƏTDƏ İNSAN TALEYİ PROBLEMİ (Q.Qrinin romanları əsasında)..........115
**X.A. İBRAHİMOVA**
PİTER AKROYDUN "UİLKİ KOLLİNS" BİOQRAFİK ROMANINDA
PSİXOLOJİ VƏ ANALİTİK YANAŞMA .......................................................................119
**T.İ. KAZIMOV**
H.FRİDRİX FON DİTSİN QORQUDŞÜNASLIQDA
VƏ AVROPA ŞƏRQŞÜNASLIĞINDA ROLU.....................................................................123
**Y.Ə. QASIMOV**
YENİ AZƏRBAYCAN ŞERİNDƏ MÜŞFİQ OBRAZI
(Altmışıncıların yaradıcılığı əsasında).........................................................................128
**S.A. QASIMOVA**
İLAXIR ÇƏRŞƏNBƏLƏR PROBLEMİ VƏ ONUN HƏLLİ YOLLARI ....................................131
**S.N. QULİYEVA**
İNGİLİS-AMERİKAN UŞAQ ƏDƏBİYYATINA NƏZƏR.......................................................138
**F.X. QURBANOV**
LƏLƏ BAYATILARININ SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ...........................................144
**E.H. MƏMMƏDOV**
S.Ə.ŞİRVANİ FÜZULİ ƏDƏBİ MƏKTƏBİNİN NÜMAYƏNDƏSİ KİMİ ...............................150
**Ş.B. NUHOVA**
RENESSANS DÖVRÜNÜN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ AZƏRBAYCAN ............155
**G.Ə. PƏNAHOVA**
XVII ƏSR İNGİLİS ƏDƏBİYYATI (Bərpa dövrünün ədəbiyyatı)...........................................160
**А.А. АЛИЗАДЕ**
ЭКЗИСТЕНЦИАЛЬНЫЕ МОТИВЫ В РАССКАЗАХ
МАРИНЫ ПАЛЕЙ И НИНЫ ГОРЛАНОВОЙ ........................................................................163
**Д.Р. АЛИЕВА**
СИМВОЛИКА ЗЕРКАЛА В ПРОИЗВЕДЕНИЯХ РУССКОЙ ЛИТЕРАТУРЫ
(на материале творчества Ф.М.Достоевского, М.М.Булгакова, В.О.Пелевина)......................171
**Х.И. АЛИЕВА**
АНГЛИЙСКАЯ ПРОЗА XX ВЕКА.......................................................................................176
**У.К. АЛЛАЗОВА**
ТВОРЧЕСТВО ГРЭМА ГРИНА В ЗЕРКАЛЕ КРИТИКИ
(к вопросу о противоборстве реалистических и модернистских тенденций
в романе «Наш человек в Гаване») ...............................................................................181
**Р.Г. БАГИРОВ**
ЛЖЕ-ПАТРИОТИЗМ В СТИХАХ РУССКИХ ПОЭТОВ О БАКУ .........................................188
**Г.Р. МЕДЖИДОВА**
ИЛЛЮЗОРНЫЙ МИР ГЕРОЕВ В СОВРЕМЕННОЙ ХУДОЖЕСТВЕННОЙ ПРОЗЕ ..........194

## PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПСИХОЛОГИЯ. ПЕДАГОГИКА. МЕТОДИКА

**T.ƏLİYEVA**
UŞAQLARIN İNTERNET RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏSİNƏ VALİDEYN NƏZARƏTİ ........ 198
**S.H. ƏLİYEV**
TƏLİMİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ İCTİMAİ FƏNLƏRİN ƏLAQƏLİ TƏDRİSİNİN ROLU ........ 201
**A.T. ƏLİYEVA, H.M. CƏFƏROVA**
RUS BÖLMƏSİNDƏ AZƏRBAYCAN DİLİ TƏDRİSİNDƏ İNNOVASİYALAR ........ 204
**İ. ƏMİRƏLİYEVA**
TƏLƏBƏLƏRDƏ TOLERANTLIĞIN FORMALAŞDIRILMASININ SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ ........ 208
**Y.B. ƏSGƏROVA**
Ə.Ə.ƏLİZADƏ YARADICILIĞINDA İSTEDADLI UŞAQLAR PROBLEMİ ........ 215
**A.F. HƏSƏNOVA**
ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MADDİ-TEXNİKİ BAZASININ YARADILMASI ........ 226
**F.Ş. HİDAYƏTOVA**
XAUERD QARDNERİN MULTİİNTELLEKT NƏZƏRİYYƏSİ ........ 230
**A.F. İBRAHİMOVA**
QRUP İŞİ FORMASINDA MÜƏLLİMİN FUNKSİYALARINA DAİR ........ 235
**S.X. İSGƏNDƏROVA**
"İNSAN VƏ CƏMİYYƏT" FƏNNİNİN TƏDRİSİ PROSESİNDƏ İNSAN HÜQUQLARI ÜZRƏ APARILAN İŞLƏR ........ 238
**J.F. MEHRƏLİYEVA**
İNGİLİS DİLİNDƏ SƏRBƏST SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏDRİSİNİN PSİXOLOJİ TƏHLİLİ ........ 245
**Y.T. MƏHƏRRƏMOVA**
TƏLİM FƏALİYYƏTİNDƏ FƏALLIQ VƏ İDRAK FƏALLIĞI ANLAMI ........ 249
**Y.B. NAMAZOV**
FİZİKANIN TƏDRİSİNDƏ HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ ........ 252
**M.H. NƏZƏROV**
MÜASİR MƏRHƏLƏDƏ MƏKTƏBLİ GƏNCLƏRİN İQTİSADİ TƏRBİYƏSİ VƏ TƏHSİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ........ 256
**M.H. NƏZƏROV**
FİZİKA FƏNNİNİN TƏDQİSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN İQTİSADİ TƏRBİYƏSİ VƏ TƏHSİLİ ........ 260
**A.O. RƏCƏBOVA**
HESABIN YARANMASI TARİXİ HAQQINDA. HESABLAMA VƏ HESABLAMANIN ONLUQ SİSTEMİ ........ 266
**F.Ə. RZAYEVA**
XARİCİ DİL TƏLİMİNƏ MARAĞIN YARADILMASI ZAMANI MOTİVASİYANIN FORMALAŞDIRILMASININ PSİXOLOJİ ƏSASLARI ........ 279
**Y.B. SƏMƏDOV**
FİZİKİ TƏRBİYƏNİN PRİNSİPLƏRİ VƏ ONLARIN ƏHƏMİYYƏTİ ........ 283
**Q.B. SƏFƏRƏLİYEVA**
ORTA İXTİSAS TƏHSİLLİ MÜƏLLİM KADRLARININ HAZIRLANMASINDA PEDAQOJİ TƏCRÜBƏ TƏDRİS İŞİNİN MÜHÜM MƏRHƏLƏSİ KİMİ ........ 289
**R.M. ŞAHBAZOV**
DİALEKTİK DÜNYAGÖRÜŞ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN FORMALAŞMASINDA FƏLSƏFİ ANLAYIŞLARIN ÖYRƏDİLMƏSİ ........ 300

**М.В. ГУЛИЕВА**
ОРГАНИЗАЦИЯ РАБОТЫ НАД ОРФОГРАФИЧЕСКИМИ ОШИБКАМИ НА УРОКАХ РУССКОГО ЯЗЫКА В V-IX КЛАССАХ ШКОЛ С АЗЕРБАЙДЖАНСКИМ ЯЗЫКОМ ОБУЧЕНИЯ ........ 303
**З.М. ГУСЕЙНОВА**
ИСПОЛЬЗОВАНИЕ РУССКО-АЗЕРБАЙДЖАНСКОГО ФРАЗЕОЛОГИЧЕСКОГО СЛОВАРЯ ПРОФ. М.Т. ТАГИЕВА НА ЗАНЯТИЯХ ПО РУССКОМУ ЯЗЫКУ В АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОЙ НЕФТЯНОЙ АКАДЕМИИ ........ 308
**К.И.КАСУМОВА, Г.Г.АХМЕДОВА**
ИСПОЛЬЗОВАНИЕ ФРАЗЕОЛОГИЧЕСКИХ ОБОРОТОВ ПРИ ИЗУЧЕНИИ ИМЕНИ ЧИСЛИТЕЛЬНОГО В ШКОЛЕ ........ 312
**К.Т. КЕРИМОВА**
УРОКИ РУССКОГО ЯЗЫКА КАК НЕРОДНОГО ........ 316
**Г.В. РАГИМОВА**
РАЗВИТИЕ ТВОРЧЕСКОЙ ЛИЧНОСТИ – ОДНО ИЗ ТРЕБОВАНИЙ СОВРЕМЕННОГО ПРАВОВОГО ГОСУДАРСТВА ........ 319
**А. Х. РАМАЗАНОВ, С.Б. ЕЛЧИЕВ, М.С.АЛЫЕВ, Р. А. АКПЕРОВ**
О ВКЛАДЕ ЕВРОПЫ В РАЗВИТИЕ МИРОВОГО ОЛИМПИЗМА. ЕВРОПЕЙСКИЕ ИГРЫ 2015 ........ 324
**О.Дж.ХАЛИЛОВА**
ЦЕННОСТНАЯ ОРИЕНТИРОВАННОСТЬ ТЕКСТОВ КАК ВАЖНЫЙ ПРИНЦИП ПРИ ИХ ОТБОРЕ В УЧЕБНЫХ ЦЕЛЯХ ........ 331
**G.N. İMANQULİYEVA**
THE ROLE OF TECHNOLOGY IN FLT ........ 338

## *İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ*

**İ. ABBASOV**
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN AMNİSTİYA AKTLARI ........ 344
**L.Q. ABASOVA**
HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNİN NƏŞRİNDƏ "AZƏRNƏŞR"in ROLU ........ 348
**S.E. BABAYEV**
AZƏRBAYCANDA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN EKOLOJİ VƏ İQTİSADİ ASPEKTLƏRİ ........ 353
**N.H. ƏHMƏDOV**
NAXÇIVAN İQTİSADİYYATININ UĞURLU İNKİŞAFI HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR ........ 361
**V.Ə. ƏLƏKBƏRZADƏ**
AZƏRBAYCAN RESPUBLİKASININ BANK SİSTEMİNİN QURULUŞU ........ 366
**R.R. HƏSƏNOV**
AZƏRBAYCANIN İLK BAŞ NAZİRİ: FƏTƏLİ XAN XOYSKİ ........ 369
**F.F. İBRAHİMLİ**
MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ MÜNASİBƏT (XX əsrin 20-ci illəri) ........ 379
**B.R. QURBANOV**
ƏRƏB-İSLAM MƏDƏNİYYƏTİ KONTEKSTİNDƏ HUMANİTAR FİKRİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI ........ 386
**Т.Ф.АЛИЕВ**
ПУТИ РЕШЕНИЯ ПРОБЛЕМЫ МЕЖНАЦИОНАЛЬНЫХ ОТНОШЕНИЙ В СТРАНАХ СНГ ........ 391

**Э.А.БАБАЕВ**
ГЛОБАЛИЗАЦИЯ НИКОГДА НЕ ОСТАНАВЛИВАЕТСЯ ........ 395
**П.В. ВОРОНА**
ФОРМИРОВАНИЕ И РАБОТА ОРГАНОВ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ В УКРАИНЕ: ГЕНДЕРНЫЙ ПОДХОД ........ 400
**Е.А. ПОМИЛУЙКО**
РОЛЬ АМОРТИЗАЦИОННОЙ ПОЛИТИКИ В ИННОВАЦИОННОМ РАЗВИТИИ ЭКОНОМИКИ УКРАИНЫ ........ 405
**Е.Б. ЛОБКО**
ВЛИЯНИЕ ОРГАНИЗАЦИОННОЙ КУЛЬТУРЫ НА ДЕЯТЕЛЬНОСТЬ ИНДИВИДА В ОРГАНИЗАЦИИ ........ 410
**В.В. ПОХИЛЮК**
ОСОБЕННОСТЬ ФОРМИРОВАНИЯ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ В УСЛОВИЯХ ТРАНСФОРМАЦИИ ИНСТИТУТОВ ВЛАСТИ ........ 416
**R.H. ALİYEVA**
THE CENTRAL BANK OF THE REPUBLIC OF AZERBAIJAN AS THE MAIN ELEMENT OF BANKING SYSTEM ........ 423
**A.Y. MAHARRAMOVA**
FIDUCIARY DUTIES OF BOARD MEMBERS IN U.S. CORPORATE GOVERNANCE PRACTICE ........ 427
**R. SADIQOV**
THE IRAN YEARS OF MAMMAD SAID ORDUBADI ........ 431